ƏKBƏR N.NƏCƏF

# TÜRK XAQANLIĞI

/ VI–VIII ƏSRLƏRDƏ TÜRK DÜNYASI /

I KİTAB

qanun nəşriyyatı

**Əkbər N.Nəcəf.**
**Türk xaqanlığı** *(VI–VIII əsrlərdə Türk Dünyası). I kitab*
Bakı, Qanun Nəşriyyatı, 2024, 224 səh.

Janr: non-fiction/tarix
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.03.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-920-3

© Qanun Nəşriyyatı, 2024
© Əkbər N.Nəcəf, 2024

Onlar hunların min il səltənəti olmuş ərazilərdə "Türk dünyası"nı inşa etdilər. Asiyanın ucsuz-bucaqsız torpaqlarında iki əsr hökmran oldular. Koreyadan Bizansa, Sibirdən Xorasana və Azərbaycana qədər geniş bir coğrafiyanı öz bayraqları altında birləşdirdilər. Çin, Hind, Sasani, Roma mədəniyyətlərini bir-birinə bağlayan qlobal ticarət münasibətlərini yaradaraq Dünya tarixində əhəmiyyətli rol oynadılar. İpək Yolu ticarətini əsrlər boyu idarə etdilər.

Monoqrafiya Türk xaqanlığı dövründə geniş Asiyada baş verən hərbi-siyasi, iqtisadi və mədəni proseslərdən bəhs edir. İlkin orta əsrlərdə Türk siyasi-mədəni kimliyinin tarixini işıqlandırır.

# İÇİNDƏKİLƏR

*Qısa açıqlama* ............................................................. *6*
*Giriş* ............................................................................. *8*
Mənbə və ədəbiyyatın qısa xülasəsi ............................. 8

*Birinci fəsil*
**Göytürklərin mənşəyi ................................................ 27**
Göytürk adı ................................................................. 27
Göytürklərin mənşəyi .................................................. 32

*İkinci fəsil*
**Birinci Türk xaqanlığının yaranması və çiçəklənməsi ........................................................... 37**
Şimali Lianq Hun dövləti (Göytürklərin əcdadı) ....... 40
Göytürklərin ortaya çıxması ........................................ 44
Duman Xaqan (542–552) .............................................. 45
Qara Xaqan (552–553) ................................................. 48
Mukan Xaqan (553–572) .............................................. 49
Taspar Xaqan (572–581) ............................................... 54
İstəmi Yabqu ................................................................. 57

*Üçüncü fəsil*
**Birinci Türk xaqanlığının parçalanması .................. 70**
Xaqanlığın parçalanması ............................................. 70
Şərqi Türk xaqanlığı (582–630) .................................. 74
Qərbi Türk xaqanlığı (582–631) .................................. 86

*Dördüncü fəsil*
**İkinci Türk xaqanlığı (681–740) .................................. 99**
Göytürk xaqanlığında daxili müharibələr (630–681) .... 99
Qutluq Xaqan ................................................................ 105
Kapqan Xaqan .............................................................. 108
Bilgə Xaqan .................................................................. 115

*Beşinci fəsil*
**Türk xaqanlığının sonu (740–745) ............................ 119**
Göytürk xaqanlığının süqutu ........................................ 119
Göytürklərin sonu ......................................................... 123

*Altıncı fəsil*
**Türk şəhərləri və ticarət ............................................. 127**
Göytürk paytaxtı: Ötükən ............................................ 127
Qərbi Türk xaqanlığının mərkəzi: Min Bulaq .............. 132
Türk şəhərləri ................................................................ 135
İpək Yolu ....................................................................... 152

*Yeddinci fəsil*
**Xaqanlığın dili .............................................................. 163**

*Türk xaqanlıqları və xaqanları ...................................... 179*

İstifadə olunan ədəbiyyat .............................................. 180

## *Qısa açıqlama...*

Uyğurca manixey mətnlərində ifadə edildiyi kimi "*bu qamuğ Türk budun*", yəni "bütün Türk xalqı" kimliyinin yaranıb formalaşdığı VI–VIII əsrlər türk tarixinin "qızıl əsri" hesab edilir. Şərqdə Koreyadan qərbdə Dunay çayına, şimalda Sibirdən cənubda Xorasana qədər böyük bir əraziyə sahib olan göytürklər iki əsr boyunca dünya siyasi tarixinin mərkəzində yer aldılar və bu iki yüzillik dövrdə iki imperiya (I Türk və II Türk xaqanlıqları) və iki dövlət (Şərqi və Qərbi Türk xaqanlıqları) yaratdılar.

Adına özlərinin *Kök-Türük* dedikləri bu dövlət VI əsrin ortalarında tarix səhnəsinə çıxdı. Özlərini hunların varisləri adlandıran göytürklər, ulu babaları kimi bütün türk tayfalarını vahid bir xaqanlıq sistemində birləşdirməklə qalmayıb, qonşu xalqların (moğol, tunquz, soğd və s.) formalaşmasında da böyük rol oynadılar. Çin, Sasani və Roma (Bizans) imperiyalarını öz vassalına çevirən türklər yazdırdıqları kitabələrdə ifadə etdiyi kimi, əsasən iki qola – "*türk və oğuzlara*" ayrılırdı. Bu kimlik altında ümumilikdə yüzdən çox türk tayfasını öz tərkibində birləşdirən göytürklər ərazinin böyüklüyü, tayfalararası mərkəzi hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi, xüsusilə də kənar müdaxilələrin (Çinin, Bi-

zansın və Sasanilərin) təsirilə İslam mədəniyyətinin yaranıb yayıldığı tarixdə siyasi bir güc kimi tarix səhnəsindən çıxdılar. VIII əsrin ilk on ilində Qüteybənin başçılığında müsəlman ordularının Xorasana daxil olduğu tarixdə xaqanlıq özünün tənəzzül dövrünü yaşayırdı.

Türklər öz dövlətlərini *el* adlandırırdı. Ümumilikdə bu xalqa *türük-oğuz budun* deyilirdi. Elin başında *kağan* (xaqan) dayanırdı. Türk iyerarxiyası 28 pilləli idi. Dövlət idari olaraq iki qanada (şərq-qərb, sağ-sol) ayrılırdı. Bu qanadları xaqana tabe *bilgələr* idarə edirdi. Türk xaqanlıq sistemi Hun dövlət sisteminin təkmilləşdirilmiş forması olub, XII əsrdə Çingiz xan tərəfindən miras olaraq alınmışdı.

Türk xaqanlıq mirası uzun illər yaşadı. Müsəlman olmalarına baxmayaraq Qaraxanlı və Səlcuqlar kimi dövlətlər bu mirasa sahiblənib onu qorudular və özlərini Türk xaqanlar soyundan gəldiklərini iddia etdilər.

Türk tarixi zənginliyi və çoxşaxəli olması ilə diqqət mərkəzindədir. Ölkəmizdə türk tarixinə maraq hər gün bir az daha artsa da, kifayət qədər tədqiqatların olmamağı təəssüf hissi yaradır. Demək olar ki, bu sahədə post-sovet məkanında ən az araşdırma bizim ölkəmizdədir. Halbuki, bu dövrün tarixini dərindən bilmədən eyni tarixdə Azərbaycanda gedən prosesləri qavramaq qeyri-mümkündür.

**Əkbər N. Nəcəf**
**ekbernecef@gmail.com**

# GİRİŞ

## Mənbə və ədəbiyyatın qısa xülasəsi

Müasir tarixşünaslıq elmində Türk xaqanlığının tarixi haqqında kifayət qədər mənbə və ədəbiyyat mövcuddur. Həmin mənbələr arasında türk dilinin ən qiymətli yazılı nümunələri – *Orxun-Yenisey abidələri* yer alır. Avropa, Türkiyə və Yaponiya tarixşünaslığında Göytürk tarixinin ümumi məsələləri demək olar ki, həll edilib öyrənilmişdir. Bu səbəbdən göytürklər haqqında araşdırma aparacaq tədqiqatçılar bol miqdarda ədəbiyyata sahibdir. Bizim ölkəmiz üçün əsas problem həmin ədəbiyyatların mövcud olduğu Qədim Türk, Çin, yapon, alman, ingilis, fransız, macar və b. dilləri öyrənib və onlardan bəhrələnən yetərli sayda araşdırıcıların olmamağıdır.

İki əsr mövcud olan Türk xaqanlığı Hun mirasına sahib çıxdı və uzun müddət onu qorudu. VIII əsrin ortalarında yıxıldığında xaqanlığın mirasını bu dəfə Uyğur, Xəzər, Kimək, Qarluq, Oğuz, Qırğız, Türkiş dövlətləri ələ keçirtdilər. Adı qeyd edilən bu dövlətlərin tarixi də müəyyən qədər araşdırılıb öyrənilmişdir.

Azərbaycan tarixşünaslığında türklərin və Türk Dünyasının tarixi bütöv və ətraflı araşdırılıb öyrənilmədiyindən haqqında danışdığımız dövlətlər və dövr haqqında ölkəmizdə yazılı araşdırmalara rast gəlmək qeyri-mümkündür. Ümumi Türk tarixi haqqında vahid bir tarix anlayışının formalaşması nəticəsində Azərbaycan tarixşünaslığında qarşılaşdığımız problemlərin böyük ölçüdə həll ediləcəyi fikrindəyik. Bu da ancaq türklər haqqında müxtəlif dildə yazılmış mənbəşünaslığın və ədəbiyyatşünaslığın öyrənilməsi və onları öz dilimizə qazandırmaqla mümkündür.

## Türkcə kitabələr

Göytürk mənbələrinin böyük hissəsi Çin, bəziləri də Qədim Türk dilindədir. Başqa dillərdə mənbələr də mövcuddur. Qədim türkcə mənbələrin başında VI–IX əsrlər arasında yazılmış kitabələr gəlir. Bu kitabələr Şərqi Monqolustandan Qafqaza qədər uzanan geniş ərazidə aşkarlanıb. Ortaya çıxarıldığı yerlərin adına uyğun isimləndirilən həmin kitabələrə ümumi şəkildə *Orxun-Yenisey abidələri* və ya *Türk kitabələri* deyilir. Bu kitabələr türk dilinin ilk yazılı mənbələridir. Həmin kitabələr üslub gözəlliyinə, söz zənginliyinə, məna çalarlığına, cümlələrin sadəliyinə və quruluş incəliyinə görə dilimizin inciləridir.

Orxun-Yenisey abidələri haqqında ilk dəfə XII əsr tarixçisi Əlaəddin Ata Məlik Cüveyni "*Tarixi-cahan-güşa*" adlı əsərində məlumat verib. Amma XIX əsrin sonuna qədər bu əsərləri oxumaq mümkün olmayıb. 1890-cı illərdə danimarkalı və rus əsilli iki alim bir-birindən xəbərsiz